# “Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri”nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

“Məktəbəqədər təhsil haqqında” Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanının 1.1.10-cu yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti

**QƏRARA ALIR:**

1. “Dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, həmçinin müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları bu qərardan irəli gələn məsələləri həll etsinlər.

***Artur Rasi-zadə,***

***Azərbaycan Respublikasının Baş naziri***

***Bakı şəhəri, 12 yanvar 2018-ci il***

***№ 12***

---